# Oyunbaz Vardanyanın növbəti hiyləgər gedişi

**O, hiyləgər bir ermənidir. Buqələmun kimi şəraitə uyğun olaraq rəngini dəyişməyi, maskalanmağı yaxşı bacarır. Həbsindən maksimum dərəcədə gələcək siyasi "karyera"sı üçün istifadə etməyə çalışır. "Planlı" hərəkət edir. "Ləyaqətli" görünmək üçün dondan-dona girir. Şübhəsiz ki, arzusu həbsxanadan "qəhrəman" kimi çıxmaqdır.**

Görünən budur ki, çirkli yollarla topladığı pullara ağızlarının şirəsini axıdan xaricdəki havadarları onu azad olacağına inandırıblar. Pulundan pay alan erməni mətbuatı da onu yaddan çıxarmır. Vaxtaşırı həbsdə olan milyarderin müraciətlərini tirajlayaraq ondan "dəmir" adam obrazı yaratmağa çalışırlar.

Söhbət Qarabağda həbs edilən, hərbi cinayətlərdə ittiham olunan Ruben Vardanyandan gedir. Heç təsadüfi deyil ki, hərbi cinayətlərdə ittiham olunan, hazırda məhkəmələri keçirilən Ermənistan vətəndaşları arasında daha çox yada salınan Ruben Vardanyandır. Bakıda mühakimə olunan milyarder özünə xaricdən ən məşhur vəkil tutmağı da, yaranmış şəraitdən istifadə edərək təbliğat aparmağı da bacarır.

Milyarderin yanvarın ikinci ongünlüyündə Ermənistan mətbuatında geniş əks-sədaya səbəb olan müraciətində qeyd edilirdi ki, guya o, heç bir sənədə imza atmayıb, heç bir ifadə verməyib. Müraciətdə "saxlanılan vaxt yalnız adımı demişəm" kimi iddialara geniş yer verilirdi. Halbuki Vardanyanın istintaq orqanları ilə əməkdaşlıq etdiyi faktlar mövcuddur. İstintaq zamanı Vardanyanın yalnız Qarabağda törətdikləri cinayətləri etiraf etməklə kifayətlənməməsi, Qərbdə də Azərbaycana qarşı olan qruplarla əməkdaşlıq etməsi (misal üçün, USAID rəhbəri Samanta Pauerlə) barədə "sirlər"i açması haqqında kifayət qədər məlumatlar var.

Şübhəsiz ki, erməni mətbuatının Vardanyanın adından yanvar ayında yaydığı müraciət Bakıdan göndərilməmişdi. Tərəfdarlarının onun adından uydurma müraciət yaymalarında məqsədləri Ermənistan ictimaiyyətinə onu "sınmayan", "sarsılmayan" "qəhrəman " obrazında təqdim etmək istəyi olub. Hadisələrin gedişi göstərir ki, müraciətin yayılmasında Vardanyanın özünün də marağı varmış.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri və digər ağır cinayətlərdə təqsirləndirilən Ruben Vardanyanın məhkəməsi başlayandan oyunbazlıq etdiyini müşahidə edirik. Onun yeganə məqsədi məhkəmədən hər vasitə ilə siyasi ambisiyalarını gerçəkləşdirmək üçün istifadə etməkdir. Dövlətin ona verdiyi vəkildən imtina edən Ruben məhkəmədə aclıq aksiyası keçirdiyinə görə özünü yaxşı hiss etmədiyini söyləyib. Bununla da dünyaya car çəkmək istəyib ki, onun aclıq aksiyası keçirməsi üçün hansısa "əsaslı səbəb" var. O, eyni zamanda təqsirləndirilən şəxs kimi sərbəst ifadə verməkdən də imtina edib. İstəyi də budur ki, məhkəməyə xarici jurnalistlər və müşahidəçilər buraxılsın və onun işi digər mühakimə olunanlarla birləşdirilsin. Heç şübhəsiz ki, xarici mətbuat orqanlarının nümayəndələrini və müşahidəçiləri Bakıya çağırmaqda onun əsl məqsədi məhkəməni şouya çevirmək və bundan öz məqsədləri üçün istifadə etməkdir. O, milyonları hesabına muzdlu jurnalistlərin məhkəməyə gəlmələrini təşkil etməklə ölkəmizin əleyhinə yeni bir kampaniya başlada biləcəyini zənn edir.

Xatırladaq ki, erməni milyarder Xankəndiyə 2022-ci ilin sentyabrında, Rusiyaya sanksiyalar tətbiq ediləndən sonra var-dövlətinə təhlükə yarananda gəlmişdi. Ona kimi Rusiya oliqarxiyasının çirkli pullarını yumaqla məşğul olan Ruben Vardanyan milyonlara sahib idi. Vardanyanın cinayətkar əməlləri haqqında hələ 2017-ci ildə dünyanın ən nüfuzlu media orqanlarında məqalələr dərc olunmuşdur. Bu məqamda bir məsələni də qeyd etmək yerinə düşər. Bu günlərdə Latviya Seyminin deputatlarının təxminən beşdəbir hissəsi Ruben Vardanyana hökm çıxarılması zamanı yerli aspektlərlə yanaşı, beynəlxalq aspektlərin də nəzərə alınması barədə bəyanatla çıxış ediblər. Deputatlar Vardanyanın cinayətkar fəaliyyətinin beynəlxalq miqyasına diqqət çəkərək ona sərt cəza verilməsini istəyiblər. Deputatlar bəyanatlarında "Vardanyanın fəaliyyətinin müxtəlif vaxtlarda müxtəlif ölkələrin siyasətçiləri, vətəndaş cəmiyyəti təşkilatları və beynəlxalq media tərəfindən diqqət çəkdiyini və pislənildiyini" xatırladıblar. "CNN Prima News" da vurğulayıb ki, 6 il əvvəl Avropa İttifaqının sanksiyalarından yayınmağa cəhd göstərməsinə baxmayaraq, Qarabağdakı erməni separatçılarının keçmiş rəhbəri indi Azərbaycanda məhkəmə qarşısına çıxarılıb və onu ömürlük həbs gözləyir.

Özünü həbs olunan, digər hərbi cinayətlərdə ittiham olunanlardan "möhkəm", fərqli göstərməyə çalışan Ruben Vardanyan istədiyinə nail ola bilməyəcəyini anladığından indi başqa bir hiyləgər gediş edib. Ermənistan mətbuatında Bakıda DTX -nin təcridxanasında saxlanılan Ruben Vardanyanın 11 dəqiqəlik səs yazısı olan daha bir müraciəti yayılıb. Müraciətdən məlum olur ki, ağır cinayətlərdə mühakimə olunan Ruben Vardanyan bütün hüquqlarından maksimum istifadə edir. Onun ailəsi ilə danışıqlarına və erməni cəmiyyətinə müraciət etməsi üçün də hər hansı məhdudiyyət qoyulmayıb. Ruben Vardanyanın bu səs yazısı erməni mediasında və erməni diasporunun təsiri ilə bəzi beynəlxalq media orqanlarında yayılan yalan iddiaları birmənalı olaraq alt-üst edir.



Ruben Vardanyan müraciətinin başlanğıcında deyir ki, dəstəyə görə hamınıza təşəkkür edirəm, bu dəstəyiniz mənə güc verir: "Mən yaxşı formadayam, tam sağlamam və səhhətimlə bağlı hər şey normaldır". Bununla da o, səhhətində ciddi problem olması barədə hay-küy yaratmağa çalışan, saxlanılandan önceki və sonrakı şəkillərini yayan tərəfdarlarının verdiyi məlumatların yalan olduğunu ifşa etmiş oldu. Müraciətdə özünün "qəhrəman" obrazını da cızmağa çalışan Ruben ailəsindən "onlara verdiyi əziyyətə görə" üzr istəyərək qeyd edir ki, bu yolu özü seçib: "Mən nəyə getdiyimi (nə etdiyimi) bilirdim və daha ağır şərtlərə hazır idim və hazıram. Mən qurban deyiləm, mənə görə acımaq lazım deyil. Çünki bu mənim şüurlu seçimim olub".

Vardanyan müraciətində azərbaycanlılara təşəkkür etməyi də unutmayıb: "Burada ünsiyyətdə olduğum azərbaycanlıların böyük əksəriyyətinə təşəkkür etmək istəyirəm, onlar məni düşmən hesab etmələrinə baxmayaraq, insani dəyərlərə sadiqdirlər - baxmayaraq ki, mənə etirazları və iradları var, onlar humanist yanaşmalarını qoruyurlar". Erməni milyarderi bu müraciəti ilə Azərbaycanın saxlanılanlara qarşı humanist yanaşma sərgilədiyini birbaşa etiraf edir. Vardanyan müraciətində "sülh mesajı" verməyi də unutmayıb. O, qonşularla birgə sülh içində yaşayacağı günə inanır. Bunun üçün uzunmüddətli sülh sazişinin yalnız sənəddə deyil, münasibətlərdə də olmasından bəhs edir. Hər şeyi dolayısı ilə unutmağa və baş verənlərin bir daha təkrarlanmaması üçün gələcək haqda düşünməyə çağıran Vardanyan müraciətində "bir-birimizə hörmət edərək yaşayacağımıza, bəzi xalqlarda olduğu kimi, qarşılıqlı düşmənçiliyə, yığılmış nifrətə qalib gələcəyimizə" inamını ifadə edib.

"Sülh göyərçinin" müraciətindən belə başa düşmək olur ki, o, yaxın günlərdə səhvini anlayıb, etdiyi düşmənçiliyə görə üzr də istəyə bilər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.-13 mart (№55).- S.8.